# YAP üzvləri Azərbaycanın inkişafı prosesində fəal rol oynayırlar

## YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşovun "İki sahil" qəzetinə müsahibəsi

***- Məlum olduğu kimi, noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaranmasının 23 ili tamam olur. Mümkünsə YAP-ın və sədri olduğunuz Binəqədi rayon təşkilatının yaranması barədə məlumat verərdiniz...***

-Şübhəsiz ki, Yeni Azərbaycan Partiyası zamanın tələbi ilə yaranan bir partiyadır. Ötən əsrin sonlarında mövcud mühit belə bir partiyanın yaranmasını şərtləndirirdi. 1988-ci ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi fonunda mövcud sovet rejiminə qarşı xalq hərəkatı yaranmışdı. Çox keçmədən Sovet İttifaqı parçalanmağa, onun tərkibindəki ölkələr isə müstəqillik qazanmağa başladılar. Bu zaman respublikamızda Azərbaycan Xalq Cəbhəsi və Müsavat Partiyası hakimiyyətə gəldi. Lakin bu partiyaların heç biri xalqın, millətin onlara olan inamını doğruldа bilmədi. Azərbaycanda yenidən etirazlar dalğası başladı, ölkə müstəqilliyini itirmək, parçalanmaq həddinə çatdı. Məhz belə bir tarixi məqamda xalqın milli ideologiyaya, aparıcı təşkilata, güclü liderə ehtiyacı var idi. Vəziyyət həqiqətən çox acınacaqlı idi. Bir tərəfdən separatçı hərəkətlər, Ermənistanın Qarabağı işğal etmək planı, digər tərəfdən xarici dairələr və bütün bunlar azmış kimi, daxildə AXCP-Müsavat hakimiyyətinin səriştəsizliyi, ölkəni bürüyən anarxiya fonunda xalqı bütün bu problemlərdən xilas edəcək şəxsə ehtiyac duyulurdu. Belə bir zamanda Azərbaycanın 91 nəfər ziyalısı Naxçıvan Muxtar Respublikasında yaşayan ümummilli lider Heydər Əliyevə müraciət edərək ölkəni yaranan təhlükələrdən xilas etməyə çağırdı. Azərbaycanın gələcək taleyinə biganə qala bilməyən dahi lider Heydər Əliyev bu çağırışı qəbul etdi və qısa bir zamanda Yeni Azərbaycan Partiyasının təsis yığıncağı keçirildi. Dahi rəhbər Heydər Əliyev isə partiyanın sədri seçildi. Hər kəs etiraf edər ki, Azərbaycanda sabitlik məhz YAP-ın təsis edilməsindən sonra başlandı və ölkəmiz bu günlərə gəlib çıxa bildi. Binəqədi rayon təşkilatı da partiyanın ilkin dövrlərində yaranan ilk on rayon təşkilatından biridir. Partiyanın rayon təşkilatı 23 illik şərəfli bir yol keçib. Təşkilatı yaradan insanlar həmin dövrdə hər cür çətinliklərə sinə gərərək əzmkarlıq nümayiş etdiriblər. Bu gün YAP Binəqədi rayon təşkilatında Heydər Əliyev ideyalarına sadiq, əqidəli, milli vətənpərvər ruhlu minlərlə insan birləşib.

***-Milli Məclisə seçkilər zamanı rayon təşkilatı tərəfindən görülən işlər barədə məlumat verməyinizi xahiş edirik. Ümumiyyətlə, təşkilatın fəaliyyətini necə dəyərləndirirsiniz?***

-Əvvəla, onu deyim ki, partiyamız yarandığı gündən 4 bələdiyyə, 5 parlament və 5 prezident seçkilərində iştirak edib və bu seçkilərdə tam qələbə qazanıb. İnanırıq ki, bu tendensiya bundan sonra da davam edəcək. Çünki partiyanın yaradıcısı, ümummilli lider Heydər Əliyevin də dediyi kimi, YAP dünənin, bu günün və gələcəyin partiyasıdır. Yəni nə qədər Azərbaycan xalqı var, YAP da, Azərbaycan dövləti də var olacaq. Bildirmək istəyirəm ki, builki parlament seçkilərində 125 deputat mandatından 70-ni YAP-ın namizədlərinin qazanması parlaq qələbənin, partiyamıza inamın ən bariz nümunəsidir. Təbii ki, parlament seçkilərinə hazırlıqla əlaqədar Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının rayon şöbələrinin Fəaliyyət Proqramına uyğun olaraq Binəqədi rayon təşkilatı tərəfindən də ilkin mərhələdə müəyyən tədbirlər həyata keçirildi. Qərargahın rayon təşkilatının ziyalılarından, ictimai-siyasi xadimlərindən və nüfuzlu şəxslərindən ibarət 19 nəfərlik tərkibi təsdiq edilmişdi. Seçki qərargahının üzvlərinin iştirakı ilə YAP Binəqədi rayon təşkilatının inzibati binasında yığıncaq keçirilərək üzvləri arasında vəzifə bölgüsü aparıldı. Bütövlükdə, YAP Binəqədi rayon təşkilatı öz fəaliyyətini partiyanın Proqram və Nizamnaməsinə uyğun şəkildə qurmuşdu. Biz öhdəmizə düşən vəzifələri layiqincə yerinə yetirməklə partiya rəhbərliyinin etimadını doğrultmağa çalışdıq. Məlum olduğu kimi, istənilən partiya seçkilərə rəqibləri ilə müqayisədə ciddi üstünlüklərlə getməlidir. Bu baxımdan Azərbaycanda YAP-la rəqabət apara biləcək siyasi partiya yoxdur. Ötən 23 il ərzində YAP böyük bir inkişaf yolu keçib və bu gün partiyamız Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişafının yeni mərhələsini yaşayır.

YAP üzvləri Azərbaycanın inkişafı prosesində fəal rol oynayırlar. Partiyanın 23 illik fəaliyyətinə nəzər saldıqda yenilikçi və avanqard siyasi təşkilat olduğunu əminliklə söyləmək olur. Partiyamızın Sədri, Prezident İlham Əliyevin vurğuladığı kimi, Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanda, bütövlükdə Cənubi Qafqaz regionunda ən böyük siyasi qüvvədir. Əminik ki, YAP bundan sonra da ölkəmizin avanqard, yenilikçi siyasi qüvvəsi olaraq bu mövqeyini qoruyacaq və daha da gücləndirəcək. Azərbaycan hüquqi dövlətdir və ölkəmizdə demokratik seçki sistemi formalaşıb. Mükəmməl seçki qanunvericiliyi var və bu hüquqi baza beynəlxalq standartlara tam uyğundur. Məhz bunun nəticəsidir ki, ildən-ilə seçki təcrübəsi təkmilləşdirilir və demokratik, şəffaf seçkilər keçirilir.Yeni Azərbaycan Partiyası da seçkilərə məhz bu və digər çoxsaylı üstünlüklərlə qatılmışdı. Şübhəsiz ki, bu sadalananlar qələbənin təmin olunmasında həlledici rol oynadı.



***-Bildiyiniz kimi, bu gün dünyada Azərbaycana münasibətdə ikili standartlar tətbiq edilir. Parlament seçkiləri zamanı da bəzi beynəlxalq təşkilatlar ölkəmizə müşahidəçi göndərməkdən imtina etdi. Bunların səbəbini necə izah edərdiniz?***

-Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ərzində əldə edilən sosial-iqtisadi nailiyyətlər ölkəmizdə hüquqi dövlət, vətəndaş cəmiyyətinin yaradılması prosesini sürətləndirməklə yanaşı, milli dövlətçiliyimizdə yeni-yeni ənənələrin də əsasını qoydu. Möhtərəm Prezidentimizin yürütdüyü daxili və xarici siyasət nəticəsində Azərbaycan ilbəil güclənir, inkişaf edir və beynəlxalq müstəvidə də öz mövqeyini gücləndirir. Artıq bu gün müstəqil dövlətimiz bölgədə söz sahibidir, Azərbaycanın razılığı olmadan regionda hər hansı transmilli layihələr həyata keçirilə bilməz. Bir sözlə, Azərbaycanın Cənubi Qafqaz regionunun lider dövləti olması və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində rolunun artması dünyanın nüfuzlu siyasətçiləri tərəfindən də etiraf olunur. Hazırda bizim kosmosda iki peykimiz var. Azərbaycan idman ölkəsi kimi adını tarixə silinməz izlərlə yazdırıb. Təbii ki, bu inkişafın fonunda günbəgün artan nüfuzumuzla barışmayan, bunlara paxıllıq edən qüvvələr də mövcuddur. Bu qüvvələrə, dövlətlərə güclü Azərbaycan lazım deyil. Bu gün Avropa Azərbaycana ikili standartlarla yanaşır. Amma cənab Prezidentimiz İlham Əliyevin də dediyi kimi, Avropa bizə nə qədər lazımdırsa, biz də onlara o qədər lazımıq. Seçkilərə dünyanın müxtəlif ölkələrindən çoxsaylı müşahidəçilər var idi. Onlar şahid oldular ki, Azərbaycanda parlament seçkiləri nə qədər şəffaf, ədalətli, demokratik bir şəraitdə keçirildi.

***-Azərbaycanda gənclər siyasəti dövlətin diqqətdə saxladığı sahələrdən biridir. Bu baxımdan rəhbəri olduğunuz təşkilatda həyata keçirilən gənclər siyasəti barədə nə deyə bilərsiniz?***

-Yeni Azərbaycan Partiyasının Sədri, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı təmin edilib, iri həcmli beynəlxalq və regional layihələr icra edilib və ya icrasına başlanılıb, respublikamızın beynəlxalq nüfuzu artıb, ölkədə aparılan islahatlar daha da sürətlənib, cəmiyyət həyatının bütün sahələrində böyük uğurlar əldə edilib. Bu uğurların qazanılmasında şübhəsiz ki, Cənubi Qafqazın ən böyük siyasi qüvvəsi, ölkəmizin aparıcı partiyası olan Yeni Azərbaycan Partiyası da mühüm rol oynayıb. YAP-ın sıralarında gənclər böyük üstünlük təşkil edir və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti də gənclərdən ibarətdir. Bu gün partiyamızın 670 minə yaxın üzvü var ki, onların da 40 faizini gənclər təşkil edir. Ümumiyyətlə, YAP hər zaman fəaliyyətində gənclərə geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun formalaşdırılmasına xüsusi diqqət yetirib. Noyabrın 1-də keçirilən parlament seçkilərində deputatlığa namizədliyi irəli sürülən şəxslər arasında ən gənc namizəd kimi 29 yaşlı Şahin İsmayılovun YAP tərəfindən namizəd olması və qələbə qazanması gənclər siyasətinə verilən dəyərin ən gözəl nümunəsidir. Beş bələdiyyə sədrindən dördünün yaşı 36-ya qədərdir. Bu da gənclərə verilən dəstəyin digər bir örnəyidir.

Ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə YAP-ın fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi Azərbaycan gənclərinin hərtərəfli inkişafı, onların ölkənin ictimai-siyasi, sosial-mədəni həyatındakı rolunun artması, idarəçilik strukturlarında geniş təmsil olunması xüsusi diqqət mərkəzindədir. Görülən effektiv tədbirlərin nəticəsidir ki, hazırda dövlət orqanlarında, bələdiyyə qurumlarında çalışan gənc kadrların sayı artmaqdadır.

YAP Gənclər Birliyi bu gün də istedadlı, cəmiyyətə və dövlətə xidmət etmək istəyən gəncləri öz ətrafında birləşdirməklə yanaşı, yeni nəslin hərtərəfli inkişafı, onlarda vətənpərvərlik ruhunun yüksəldilməsi, gənclərin aktiv ictimai fəaliyyətə cəlb olunması və digər istiqamətlərdə işlər görür. Gənclər bütün seçkilərdə fəal iştirak ediblər. İnanırıq ki, bu işlər bundan sonra da davam etdiriləcək, Azərbaycan daha güclü olacaq, xalqımız daha firavan yaşayacaq.

***-Rayon təşkilatının neçə ərazi ilk partiya təşkilatı var və onlarla iş necə qurulur?***

Nəzərinizə çatdırım ki, təşkilatın hazırda 15 min nəfərdən artıq üzvü var. Bu üzvlər 215 ərazi ilk partiya təşkilatlarında birləşir. Nizamnaməyə uyğun olaraq YAP Binəqədi rayon təşkilatı mütəmadi olaraq ərazi ilk partiya təşkilatları ilə tədbirlər keçirir, fəaliyyət planı hazırlayıb onlara göndərir. Buna uyğun olaraq ərazi ilk partiya təşkilatları da öz fəaliyyət planını qururlar. Rayon təşkilatının bütün tədbirlərində ərazi ilk partiya təşkilat sədrləri, fəal üzvləri aktiv şəkildə iştirak edirlər. Ərazi ilk partiya təşkilatları müxtəlif layihələrlə çıxış edir, ərazidə intellektual, fəal, ziyalı şəxslərin partiya sıralarına cəlb olunması istiqamətində də işlər görürlər.

**Taleh Bağırov, "İki sahil"**